

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 yanvar 2022-ci il №5 (2616) https://mod.gov.az Qiyməti 30 qəpik


*Təlim*

## “Topçular istənilən tapşırığı uğurla yerinə yetirmək əzmindədirlər”



***Danılmaz həqiqətdir ki, müharibədə artilleriyanın yeri və rolu əvəzsizdir. Yəqin elə bu amili nəzərə alan Azərbaycanın görkəmli hərb xadimi Əlağa Şıxlinski deyib ki, artilleriya müharibənin Allahıdır. Qoşunların üzbəüz döyüşlərində artilleriyadan istifadə etmədən qalib gəlmək mümkün deyil. Qalib gəlsən də, çox itki verməli, çox qan axıtmalı olacaqsan.***

İstər 2016-cı ilin Aprel döyüşlərində, istərsə də Vətən müharibəsində artilleriyaçılarımız böyük hünər və qəhrəmanlıq göstərdilər. Onlar dəqiq atəş zərbələri ilə erməni işğalçılarının zirehli texnikalarını, atəş mövqelərini və canlı qüvvələrini məhv etdilər. Bir sözlə, İkinci Qarabağ müharibəsində qələbənin qazanılmasına böyük töhfələr verdilər.

“N” hərbi hissəsində artilleriyaçılarla söhbət etdik. Vətən müharibəsində göstərdikləri igidlik və rəşadətdən də xeyli danışdıq. Zabitlərdən biri dedi ki, əvvəllər artilleriyanı müharibənin Allahı adlandırırdılar. Amma Vətən müharibəsi göstərdi ki, artilleriya müharibənin Allahı olmaqla bərabər, həm də özüdür.

Bu gün müharibələri artilleriyasız təsəvvür etmək mümkün deyil. Bu və ya digər amilləri nəzərə alan artilleriyaçılarımız daim dərs və məşğələlər keçir, döyüş hazırlıqlarını artırırlar. Vətən müharibəsində göstərdikləri cəsarət və rəşadətdən, qazandıqları uğurlardan ruhlanan hərbçilərimiz artilleriyanın sirlərinə daha da dərindən yiyələnməyə çalışırlar.

Çöl məşğələlərini izləyərkən biz bunun canlı şahidi olduq. Təlim keçən əsgərlər məşğələlərdə fəal iştirak edir, artilleriya qurğusunun sirlərinə daha da dərindən yiyələnməyə can atırdılar.

Kapitan Pərviz Ağamalıyevlə söhbətimiz maraqlı keçdi. Zabit dedi ki, çöl məşğələsinə qatılan artilleriyaçıların əksəriyyəti Vətən müharibəsinin iştirakçılarıdır. “Döyüşdən Zəfərlə çıxmış zabit və əsgərlərimiz təcrübəlidirlər. Döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət bilik və bacarığını yenə də artırmaqda davam edir. Məşğələ prosesində Vətən müharibəsində qazanılan təcrübədən də istifadə olunur. Dərsin mövzularına uyğun olaraq hərbçilərimiz planlı və plandankənar hədəflərin məhv edilməsini, atəş mövqeyinin tutulmasını, tərk edilməsini və zəruri olan başqa vərdişləri dərindən mənimsəyirlər. Çalışırıq ki, məşğələlər səmərəli keçsin, heyət nəfərləri hərbi bilikləri elə mənimsəsinlər ki, bu vərdişlər gələcəkdə onlara yeni qələbələr qazandırsın”.

(Ardı 2-ci səhifədə)



Hərbi Akademiyada Bolqarıstanın nümayəndə heyəti ilə görüş keçirilib

3-cü səhifədə



Hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırıldı

4-cü səhifədə



20 Yanvar - tarixin qan yaddaşı

5-ci səhifədə



Bölük komandirləri ilə təlim toplanışları keçirilib

7-ci səhifədə

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Bolqarıstanın nümayəndə heyəti ilə görüşüb





*Yanvarın 18-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının G.S.Rakovski adına Hərbi Akademiyasının rəisi general-mayor Qrudi Angelovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan general-polkovnik K.Vəliyev Azərbaycan ilə Bolqarıstan arasında hərbi əməkdaşlığın möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən general-mayor Q.Angelov ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən hərbi təhsil sahəsində təcrübə mübadiləsinin mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə hərbi qulluqçuların, o cümlədən mülki işçilərin bilik və bacarıqlarının artırılması istiqamətində ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, eləcə də hərbi təhsil sahəsində maraq doğuran digər məsələlər müzakirə edilib.

# "Topçular istənilən tapşırığı uğurla yerinə yetirmək əzmindədirlər"



(Əvvəli 1-ci səhifədə)

Top komandiri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Paşa Məhəmməd oğlu Abışov ilə görüşüb söhbət etdik. O da Vətən müharibəsinin iştirakçısıdır. Talış və Suqovuşan uğrunda vuruşub. Artilleriyaçı kimi üzərinə düşən tapşırıqlarının öhdəsindən bacarıqla gələrək erməni qəsbkarlarının neçə-neçə atəş mövqeyinin külünü göyə sovurub, xeyli canlı qüvvəsini məhv edib. Döyüşlərdə göstərdiyi igidlik və cəsarətə görə Abışov Paşa Məhəmməd oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülüb.

- Qalib ordunun sıralarındayam. Bundan qürur duyur, iftixar hissləri keçirirəm, - deyə top komandiri Paşa Abışov sözə başladı. - Ermənilər 28 ildən artıq idi ki, torpaqlarımızı işğalda saxlayırdılar. Təəssüflər olsun ki, bu müddət ərzində aparılan sülh danışıqları da müsbət nəticə vermirdi. Deməli, işğalda qalan yurdumuz yalnız müharibə yolu ilə, əsgərlərinin qəhrəmanlığı ilə azad olunmalıydı. 27 sentyabr 2020-ci ildə ermənilər yeni ərazilərimizi ələ keçirmək məqsədilə mövqelərimiz üzərinə hücuma keçdilər. Əks-hücum əməliyyatı ilə Vətən müharibəsi başlandı. Talış və Suqovuşan uğrunda vuruşduq. 44 gün ərzində mərmiləri erməni işğalçılarının üstünə dolu kimi yağdırdıq. Azərbaycan Ordusu Vətən müharibəsindən zəfərlə çıxdı. Qürur duyuram ki, yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə mən də ordumuzun sıralarında oldum. Əsgər yoldaşlarımla bərabər çiyin-çiyinə vuruşdum. İndiyə qədər



əxz etdiyim döyüş təcrübəsini bu gün çöl məşğələsində gənc əsgərlərə öyrədir, onların hazırlığını artırırıq. Təlim və məşğələlərin keçirilməsində əsas məqsəd budur.

Əsgər Sadiq Habil oğlu Almasov ordu sıralarına 2020-ci ildə - yurdumuzun azadlığı uğrunda gərgin döyüşlər gedən günlərdə çağırılıb. - Çox təəssüflər olsun ki, gənc əsgər olduğumuza görə bizi döyüşlərə cəlb etmədilər, Vətən müharibəsinin iştirakçısı ola bilmədik, - deyə əsgər söhbətə başladı. - Çox istərdim ki, torpaqlarımızın azadlığı uğrunda mən də döyüşüm. Müharibəyə göndərilməsək də, təlim və məşğələlərdə fəal iştirak etdim. Hərbi bilik və döyüş vərdişlərini dərindən mənimsədim. Buna görə də təlimlər zamanı tuşlayıcı kimi vəzifəmin öhdəsindən bacarıqla gəlirəm. Çünki bu gün iştirak etdiyimiz məşğələlərdə qazandıqlarımız biliklər gələcəkdə bizə yeni-yeni qələbələr qazandıracaq. Xalqımız əmin olsun ki, topçular istənilən tapşırığı uğurla yerinə yetirmək əzmindədir.

Əsgərlər Həbib Gözəlov, İlkin Əhmədli, Murad Zərbalıyev də dərs və məşğələlərdə fəal iştirak etdiklərini, hərbi bilik və vərdişləri mükəmməl mənimsədiklərini dedilər.

Döyüş vərdişlərini mənimsəyən əsgərlərə xidmətlərində uğurlar arzuladıq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# ANAMA mina təhlükəsi ilə əlaqədar vətəndaşlara xəbərdarlıq edib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) mina təhlükəsi ilə əlaqədar vətəndaşlara xəbərdarlıq edib.

AZƏRTAC ANAMA-nın tviter səhifəsinə istinadla xəbər verir ki, xəbərdarlıqda vətəndaşlardan qaydalara riayət etməklə təhlükəsiz mühitin yaradılmasına dəstək göstərmələri xahiş olunur.

"Mina gizli düşməndir. Təhlükəli ərazilərə daxil olmayın! Minalanmış ərazilər ölüm tələsidir. Yaxınlaşmayın, daxil olmayın! Partlamamış hərbi sursatlar ölümcüldür. Ailənizi və yaxınlarınızı düşünün! Xəbərdaredici işarələrə əməl edin, evinizə sağlam qayıdın!", - deyə vətəndaşlara xəbərdarlıq edilib.

# "Biz regionda sülh və sabitliyi qorumaq üçün əlimizdən gələni edirik"

*Biz diplomatik münasibətlərimizin 30-cu ilini qeyd edirik. Ötən əsrin 90-cı illərinin əvvəlləri Azərbaycan yenidən müstəqilliyini qazandı və xarici əlaqələr qurmağa başladı. Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə Türkiyə Respublikası oldu və bununla da qardaşlığını bir daha sübut etdi.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Azərbaycanla Türkiyə arasında diplomatik münasibətlərin bərpasının 30 illiyi ilə bağlı keçirilən fotosərgidə söyləyib.

Müdafiə, təhsil, mədəniyyət və digər sahələrdə münasibətlərin uğurlu inkişafı üçün iki qardaş ölkə arasında bir çox sənədlərin imzalandığını qeyd edən türkiyəli səfir deyib: "Vaxtilə ümummilli lider Heydər Əliyev Azərbaycanın Xəzər dənizindən əldə etdiyi qaz və nefti qardaş Türkiyəyə, buradan da Avropaya nəql etməyə qərar verib. Bu, bizim üçün ayrılmaz, möhkəm münasibətləri daha da inkişaf etdirib, eyni zamanda, iqtisadiyyatlarımıza da töhfə verib. Diplomatik münasibətlərimiz müttəfiqlik səviyyəsinə qədər yüksəlib və Şuşa Bəyannaməsi bunun sübutudur. Bu Bəyannamə bizim münasibətlərimiz üçün dərin məna kəsb edir. Məqsədimiz bir-birimizin müstəqilliyini, ərazi bütövlüyünü qorumaqdır. Bu, eyni zamanda, münasibətlərimizin hər bir sahədə inkişafı deməkdir.

Bu gün Azərbaycan enerji resurslarını Türkiyə vasitəsilə Avropaya nəql edir. "Star" Neft Emalı Zavodunun yaradılması ilə Türkiyəyə bu günə qədər investisiya qoymuş ən böyük ölkə Azərbaycan oldu. Regionda Qarabağ Zəfəri ilə artıq yeni reallıqlar yaranıb. Biz sülh və sabitliyi qorumaq üçün əlimizdən gələni edirik".

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi HHQ-də toplanışın gedişatını izləyib





*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Hərbi Hava Qüvvələrinin hərbi hissələrindən birində olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, HHQ-nin şəxsi heyəti ilə görüşən Baş Qərargah rəisi hava hücumundan müdafiə rəisləri, zenit-raket divizionlarının komandirləri ilə keçirilən təlim-metodiki toplanışda iştirak edib.

General-polkovnik Kərim Vəliyev döyüş qabiliyyətinin daha da artırılması və döyüşə hazır olma vəziyyətinin yüksək səviyyədə saxlanılması, hava məkanımızın etibarlı qorunması, döyüş növbətçiliyinin keyfiyyətli təşkili və aparılması ilə bağlı tapşırıqlar verib.

Sonda Baş Qərargah rəisi şəxsi heyətin qayğıları ilə maraqlanıb və Müdafiə nazirinin müvafiq tapşırıqlarını aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

# Hərbi Akademiyada Bolqarıstanın nümayəndə heyəti ilə görüş keçirilib



Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev Bolqarıstan Respublikasının G.S.Rakovski adına Hərbi Akademiyasının rəisi general-mayor Qrudi Angelovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin dostluq və səmərəli əməkdaşlıq üzərində qurulduğunu vurğulayan general-leytenant Heydər Piriyev ölkəmizdə müasir ordu quruculuğu və hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin artırılması istiqamətində aparılan işlər barədə danışıb. Qeyd olunub ki, ölkəmizdə hərbi təhsil sistemi müasir dünya praktikası və Vətən müharibəsində qazanılan təcrübələr də nəzərə alınmaqla həyata keçirilir.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-mayor Q.Angelov qeyd edib ki, peşəkar zabit kadrlarının hazırlanması Bolqarıstan Silahlı Qüvvələrində də prioritet sahələrdəndir.

Görüşdə tərəflər təhsil sahəsində birgə əməkdaşlığın inkişaf perspektivlərini və qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə ediblər.

Daha sonra hər iki ölkənin hərbi təhsil sistemləri, eləcə də Hərbi Akademiyanın tarixi və fəaliyyəti barədə brifinqlər təqdim edilib. Bolqarıstanın nümayəndə heyəti burada keçirilən dərs prosesinin gedişatı ilə tanış olub.



Sonda qonaqların Azərbaycan Hərb Tarixi Muzeyinə ekskursiyası təşkil edilib.

# "Monteneqro Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü hər zaman dəstəkləyib"

Yanvarın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan Monteneqro parlamentinin sədri Aleksa Beçiçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ceyhun Bayramov Azərbaycanın Monteneqro ilə münasibətlərin inkişafına əhəmiyyət verdiyini bildirib. O, iki dövlət arasında yüksək səviyyəli siyasi dialoqun mövcud olmasından və münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində inkişafından məmnunluq ifadə edib. Nazir parlamentin sədrinin hazırkı səfəri çərçivəsində keçirilmiş görüş və müzakirələrin ikitərəfli əlaqələrin daha da genişlənməsinə öz müsbət təsirini göstərəcəyini vurğulayıb.

Monteneqro parlamentinin sədri Aleksa Beçiç səmimi salamlamaya və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti, Milli Məclisin sədri, habelə Baş nazir ilə keçirilmiş görüşlərə məmnunluqla istinad edib. Münasibətlərin inkişafında hər iki ölkənin diplomatik nümayəndəliklərinin fəaliyyəti xüsusilə vurğulanıb. Aleksa Beçiç Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində ölkəsinə göstərdiyi humanitar yardımı minnətdarlıqla qeyd edib.

Tərəflər iki ölkə arasında iqtisadi, sərmayə, nəqliyyat, enerji, humanitar, o cümlədən turizm sahələrində əməkdaşlığın inkişafı perspektivləri ətrafında fikir mübadiləsi aparıblar. İki ölkənin siyasi sahədə, eləcə də konsulluq sahəsində məsləhətləşmələri davam etdirməsinin vacibliyi qeyd olunub. Habelə iqtisadi-ticarət sahəsində əlaqələrin genişləndirilməsi baxımından hökumətlərarası birgə komissiyanın fəaliyyətinin önəmi vurğulanıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədə mövcud olan cari vəziyyət, xüsusilə də 30 ilə yaxın davam edən işğala son verən 44 günlük müharibənin nəticələri, azad olunmuş ərazilərimizdə həyata keçirilən yenidənqurma işləri, çoxsaylı məcburi köçkünlərin mümkün qədər qısa zamanda şərəfli və təhlükəsiz geri dönüşünü təmin etmək üçün hökumət tərəfindən görülən təxirəsalınmaz tədbirlər, o cümlədən ərazilərin minalardan təmizlənməsi sahəsində fəaliyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı atılan addımlar barədə məlumat verib.

Aleksa Beçiç dost Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü Monteneqronun hər zaman dəstəklədiyini qeyd edib. O, ölkəsinin sülh və dialoqun gələcəyinə inandığını vurğulayıb, bu xüsusda bölgədə sülh quruculuğu fəaliyyətində Azərbaycana uğurlar arzulayıb.

Monteneqro Parlamentinin sədri Azərbaycan xarici işlər nazirini ölkəsinə səfərə dəvət edib.

Nazir Ceyhun Bayramov dəvətə görə təşəkkürünü bildirib, Azərbaycanın ikitərəfli əlaqələrin daha da inkişafına hazır və sadiq olduğunu diqqətə çatdırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Ermənistanın etnik təmizləmə siyasəti təkcə region üçün deyil, dünya üçün çox ciddi problemlər yaratmışdı

*Ermənistanın 1988-1989 illərdə başlatdığı aqressiv siyasət nəticəsində Ermənistan əraziləri, eləcə də işğal altında olan Qarabağ etnik azərbaycanlılardan təmizlənib. Bu siyasətin uzun müddət davam etməsi təkcə region üçün deyil, dünya üçün çox ciddi problemlər yaratmışdı.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Tbilisidə Rondeli Fondunun təşkil etdiyi təhlükəsizlik konfransının "2020-ci il Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda güc balansı" adlı sessiyasında çıxışı zamanı söyləyib.

F.Şəfiyev qeyd edib ki, Cənubi Qafqazın hər üç ölkəsi arasında sülh və sabitliyin möhkəmləndirilməsinin başlıca şərti Ermənistanın ərazi iddialarından əl çəkməsidir.

Avropa İttifaqının təhlükəsizliyinin əsasının da ərazi bütövlüyünə əsaslandığını xatırladan mərkəz rəhbəri deyib ki, Azərbaycan və Ermənistan liderlərinin Soçi və Brüssel görüşləri ümidvericidir.

Rusiyanın proseslərdə iştirakına münasibət bildirən Şəfiyev deyib ki, rəsmi Moskva hər zaman bölgədə vacib siyasi aktor olub. Bu baxımdan Rusiyanın proseslərdən kənarda qalmasını gözləmək doğru yanaşma deyil.

F.Şəfiyev, həmçinin qeyd edib: "Rusiya sülhməramlıları Azərbaycan ərazisinə 5 il müddətinə yerləşdirilib və onların qalması Azərbaycanla Ermənistan arasında əlaqələrin gələcəyindən asılıdır. Sülh yolu ilə irəliləmək həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına cavab verir".

# Azad edilmiş ərazilərdə yeni hərbi obyektlər istifadəyə verilib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, azad edilmiş ərazilərdə xidmət edən hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov Füzuli rayonunda yeni inşa edilən modul tipli infrastrukturun açılışında olub.

Məruzə olunub ki, döyüş mövqelərində inşa edilən modul tipli yerləşmə məntəqələrində şəxsi heyətin bütün zəruri ehtiyacları qarşılanıb. Bu məntəqələrdə silah otağı, yeməkxana, mətbəx, ərzaq və əşya anbarları, hamam-sanitar qovşağı, eləcə də istilik sobaları ilə təchiz edilmiş yataqxana mövcuddur.

Ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar quraşdırılıb. Bundan əlavə, burada avtomobil parkı, hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili üçün idman şəhərciyi, mini futbol meydançası salınıb. Bölmənin ərazisində abadlıq işləri aparılıb, müxtəlif növ ağaclar əkilib.



General-leytenant N.Osmanov şəxsi heyətin döyüş və maddi-texniki təminatı ilə maraqlanıb, xidmətlərində uğurlar arzulayıb. Nazir müavini, həmçinin müdafiə nazirinin aidiyyəti üzrə müvafiq tapşırıqlarını şəxsi heyətə çatdırıb, xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edib.

Sonda nazir müavini Müdafiə Nazirliyinin mərkəzi ərzaq anbarının bölgələrdə yerləşən bölməsində yeni inşa olunan qərargah binasının açılışında iştirak edib. Burada hərbi qulluqçular üçün yaradılan şəraitlə, eyni zamanda, ərzaq məhsullarının anbara qəbulu, saxlanılması və qoşunlara paylanılması prosesi ilə yaxından tanış olub.

# Hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırıldı



*Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun dislokasiya yeri işğaldan azad edilmiş ərazi olan hərbi hissədə xidmətdə fərqlənənləri qiymətli hədiyyələrlə mükafatlandırması böyük sevgi, hərbi xidmətə məsuliyyət yaradıb.*

**"Azərbaycan Ordusu"**



**Kapitan Elşən Balakişiyev**:

- Vətən müharibəsi ordumuzun böyük qələbəsi ilə başa çatdı, torpaqlarımız işğaldan azad edildi. Bu müharibə də, qazanılan Zəfər də tarixləşdi. Azərbaycan Ordusunun zabiti olaraq qürurlanıram ki, Vətən müharibəsində mən də iştirak etmişəm.

Vətən müharibəsi bu günün gənclərinin vətənpərvərlik tərbiyəsinin daha geniş, məzmunlu şəkildə formalaşmasında mühüm əhəmiyyətə malik oldu. İndi hər bir çağırışçı hərbi xidmətə qazanılmış Zəfərin ovqatı ilə gəlir, ilkin hərbi hazırlığını da, ümumilikdə hərbi xidmətini də Zəfərin davamı bilir.

Biz işğaldan azad edilmiş ərazidə xidmət edirik. Əsgərlərimiz qalib əsgərlərin davamçıları olaraq Vətənə sədaqətlə xidmət edirlər, verilən tapşırıqları, əmr və göstərişləri məsuliyyətlə yerinə yetirirlər.

Bu günlərdə müdafiə nazirinin müavini Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun hərbi hissəmizə gəlişi, şəxsi heyətlə bilavasitə xidmət yerində söhbətləşməsi, onlara gərəkli tövsiyələr verməsi hər birimizə könül xoşluğu verdi. Söhbət hərbi xidmətin məsuliyyətinin Vətənə sevgi olduğunun təsdiqi kimi dinlənildi.

Qürurlanıram ki, nazir müavini məni də təltif etdi. Bu təltifə işğaldan azad edilmiş ərazidə xidmətimə görə layiq görülməyimi hərbçi taleyimin uğuru bilirəm.

**Gizir Pənah Sadıqlı**:

- Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi Qələbə Günü kimi tarixləşdi, düşmən üçtərəfli bəyanatı imzalamağa məcbur oldu. Qazanılan Zəfər torpaqlarımızın işğaldan azad edilməsini təmin etdi. Vətən müharibəsində mən də iştirak etdim.

İndi xidmətimi işğaldan azad edilmiş ərazidə davam etdirirəm. Bu, mənə həm qürur verir, həm də məsuliyyətimi artırır. Vətən qarşısında borcumuzu məhz bu məsuliyyətlə ödəyirik. Əsgərlərimiz dözümüylə, hərbi xidmətə sevgisiylə təsdiqləyir ki, Vətən müharibəsində qazanılan Zəfər onların dünyaduyumunu da genişləndirib, Vətən sevgilərini də yüksəldib. Onlar nümunəvi xidməti ilə Vətən müharibəsi iştirakçılarının mənəvi davamçılarıdır.

Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanovun hərbi hissəmizə gəlişini böyük ruh yüksəkliyi ilə qarşıladıq. Bunu hərbi xidmətimizə etimad bildik. Nazir müavininin söhbətləri də, tövsiyələri də bizim bundan sonrakı hərbi xidmətimizə stimul olacaq.

General-leytenant Nizam Osmanov məni də təltif etdi. Buna həm sevinirəm, həm də bunun məsuliyyətini aydınlığıyla dərk edirəm. Mənim hərbi xidmətim müddətində müxtəlif təltiflərim olub. Bu təltifi həmişə duyğusallıqla xatırlayacam. İşğaldan azad edilmiş ərazidə xidmətə görə təltifin nə olduğunu heç zaman unutmayacam...

**Əsgər Abid Rəhimov**:

- Bu gün müdafiə nazirinin müavini cənab general-leytenant Nizam Osmanov tərəfindən təltif olunan hərbi qulluqçulardan biri də mən oldum. Hədiyyə almaq gözəl hissdir. Lakin general tərəfindən təltif olunmaq əsgər üçün ən böyük sevincdir. Xidmətimin ən yaddaqalan günlərindən birini yaşayıram. Bu hədiyyəni hərbi xidmətim dövründə, ələlxüsus əzəli və əbədi Vətən torpaqlarında almağım məni daha da qürurlandırır. Qürurluyam... Qürurluyam ki, bu gün işğaldan azad olunmuş tarixi torpaqlarımızın keşiyində duran Vətənin oğulları sırasındayam. Hər birimiz üzərimizə düşən məsuliyyəti dərindən hiss edir, Vətən müdafiəsində dayanmağın nə qədər vacib və müqəddəs vəzifə olduğunu yaxşı anlayırıq. Məqsədim qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlməklə yaxınlarıma və doğmalarıma hər zaman başucalığı gətirməkdir. Hərbi xidmətə gəldiyim gündən komandirlərimiz tərəfindən hər zaman yüksək diqqət və qayğı görmüşəm. Bu gün də təltif olunmağım bunun əsas göstəricilərindən biridir. Göstərilən isti münasibət məni xidmətə daha da ruhlandırır. Həmçinin ordu rəhbərliyinin də bölməmizi tez-tez ziyarət etməsi, bizim üçün yaradılan şəraitlə tanış olması, qayğı və problemlərimizlə maraqlanması bizə olan yüksək etimadın və ordumuza göstərilən diqqətin təzahürüdür. Qısa vaxt ərzində ordumuzda aparılan quruculuq işləri nəticəsində bölməmizdə arzuolunan şərait yaradılıb. Yaradılan şərait bizim xidməti fəaliyyətimizi düzgün təşkil etməkdə yardımçı olur.

**Əsgər Kənan Əliyev**:

- Əks-hücum əməliyyatı ilə başlayan Vətən müharibəsində orta məktəbdə oxuyurdum. Lakin aidiyyəti qurumlara müraciət edərək döyüşlərdə iştirak etmək istədiyimi bildirsəm də, buna icazə verilmədi. Şanlı Qələbəni müjdələyən rəşadətli ordumuzun Zəfər paradını ailə üzvlərimlə birlikdə çox böyük sevinc hissi ilə izlədim.

Bu gün isə mən qalib bir ordunun əsgəri olmağımla fəxr edirəm. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı möhtəşəm qələbə ordumuzun gücünü, qüdrətini artırmaqla yanaşı, xalqımızın birliyini, həmrəyliyini də dünyaya nümayiş etdirdi. İndi hər bir əsgər qalib Azərbaycan Ordusunun sıralarında olmaqdan və düşmən işğalından azad edilən əzəli və əbədi torpaqlarımızda müqəddəs borcunu yerinə yetirməkdən qürur duyur.

İlk gündən Hərbi Nizamnamələrin, komandirlərimin, təcrübəli əsgər yoldaşlarımın da dediklərini və tövsiyələrini yerinə yetirirəm. Bu, mənim hərbi biliklərimin artmasında mühüm rol oynayır. Xidmətim Vətən müharibəsi iştirakçısı olan komandirlərimin xatirələriylə, təəssüratlarıyla daha da zənginləşib. Əldə etdiyim biliklər mənim fərqlənməyimdə başlıca rol oynadı. Fərqlənmək isə xidmətin uğurlu davamı üçün başlıca şərtlərdəndir.

Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi tərəfindən qiymətli hədiyyəyə layiq görülmək isə ən unudulmaz xatirədir.

**Əsgər Pünhan Mehdiyev** :

- Qalib xalqın əsgəri olmaqdan qürur duyuram. Komandirlərimin əmrlərinə, tələb və göstərişlərinə əməl etməyə çalışıram. Havalar soyuq, sərt keçsə də, iqlimin belə olması Vətənə borcumuzu yerinə yetirməyə mane ola bilmir. Torpaqlarımızın işğaldan azad olunması bir əsgər kimi məni də çox, lap çox sevindirdi.

Bu gün hərbi xidmətdəyik. Həm də işğaldan azad edilmiş ərazidə. Bizim üzərimizə düşən məsuliyyəti tam dərk edirik. Bizdən sonra hərbi xidmətə gələn əsgərlər də bizim yolumuzu davam etdirəcəklər. Əminəm ki, işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri tezliklə başa çatacaq. Mən də o zaman qürurla deyəcəm ki, bu torpaqlarda xidmət etmişəm.

Doğma torpaqlarımızda xidmət bizim Vətənə sevgimizi yüksəldir. Hər oba, hər cığır, hər dağ-təpə də bizim evimiz, yurdumuzdu. Əsgər yoldaşlarım da bu mövzuda mənimlə eyni fikirdədirlər. Biz azad olunmuş torpaqlarda xidmət etməkdən, yeni hərbi biliklər öyrənməkdən, dostlar qazanmaqdan məmnunuq.

Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov xidmətlərimə görə məni də qiymətli hədiyyə ilə mükafatlandırdı. Bu diqqət məni daha da ruhlandırdı. Nümunəvi xidmət edərək daim əsgər yoldaşlarıma örnək olmağa çalışacam.

# 20 Yanvar - tarixin qan yaddaşı

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr olunmuş "20 Yanvar - tarixin qan yaddaşı" mövzusunda tədbir keçirildi. Ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.*





Əvvəlcə 20 Yanvar faciəsinin ağrı-acılarını əks etdirən video-çarx nümayiş olundu.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti Fikrət Səmədov çıxış edərək dedi:

- 20 Yanvar faciəsi Azərbaycan xalqının tarixinə qanla yazılıb. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinini baş katibi Mixail Qorbaçovun əmri ilə dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi şəkildə qətlə yetirildi. M.Qorbaçov SSRİ Konstitusiyasının 119, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddəsini kobudcasına pozaraq Bakı şəhərində fövqəladə vəziyyət elan etdi. Amma bu barədə əhaliyə məlumat verilməmiş, sovet əsgərləri günahsız, əliyalın insanların üzərinə ağır texnikaları yeritmişdi. İttifaq rəhbərliyi bu hücumla xalqımızın azadlıq və müstəqillik arzusunu qanla boğmaq istədi. Amma məqsədinə nail ola bilmədi. 20 Yanvar gecəsində Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 131 nəfər amansızcasına qətlə yetirildi, yüzlərlə vətəndaşımız yaralandı.

"N" hərbi hissəsinin zabiti Ceyhun Məmmədov çıxışında dedi:

- 20 Yanvar şəhidləri Azərbaycan xalqının azadlığı və müstəqilliyi yolunda canlarından keçdilər. Adlarını xalqımızın qəhrəmanlıq tarixinə yazdılar. 20 Yanvar 1990-cı il səhifəsini vərəqləyən bugünkü gənc nəsil şəhidlərin qəhrəmanlıq və ömür yolları ilə yaxından tanış olacaq, cəsarət və hünəri onlardan öyrənəcəklər. Əminəm ki, bu gün anım mərasimində iştirak edən zabit və əsgərlər gələcəkdə şəhidlərimizin qəhrəmanlıq yolunu ləyaqətlə davam etdirəcəklər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi ədəbi-bədii kompozisiya nümayiş etdirdi. Solistlər qəhrəmanlığı, mübarizliyi və igidliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Şəhid Sərxan Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhid olan əsgər Sərxan Əliyevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, dostları, döyüş yoldaşları və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə çıxış edənlər rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfərdən, bu Qələbənin tarixi əhəmiyyətindən, Vətən müharibəsində Azərbaycan oğullarının qəhrəmanlığından və şəhid əsgərin həyatından danışıblar.



Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək, vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə əsgər Əliyev Sərxan İslam oğlu ölümündən sonra müxtəlif medallar ilə təltif olunub.

Şəhidin valideynləri İslam Əliyev və Esmira Pərvanəyeva övladları haqqında xatirələrini bölüşüb, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Mərasimin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən musiqilər ifa ediblər.

# Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında konfrans keçirilib

*Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Vətənpərvərliyin təbliği istiqamətində görülən işlər və mənfi təzahürlər" mövzusunda növbəti konfrans keçirilib.*



Təşkilatın sədri Fatma Səttarova konfransı açıq elan etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət Himni səsləndirilib.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov mövzu ilə bağlı çıxış edərək Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qazanılan böyük qələbəsindən, xalq-ordu birliyindən, işğaldan azad olunan ərazilərdə aparılan quruculuq işlərindən və şəhid ailələrinə göstərilən diqqət və qayğıdan söz açıb.

Sonra konfransın mövzusu ətrafında veteranlar çıxış edərək fikirlərini söyləyiblər. Veteran və qazilərin döyüş meydanında olduğu kimi, cəmiyyətdə də nümunəvi olmalarının vacibliyi bildirilib.

**"Azərbaycan Ordusu"**

# "Biz torpaqlarımızı geri aldıq və bundan ancaq qürur duyarıq"

Biz torpaqlarımızı geri aldıq və bundan da ancaq qürur duyarıq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri özünün rəsmi tvitter hesabında Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Səlcuk Bayraktar Massaçusets Texnologiya İnstitutunun bir əməkdaşının Azərbaycanın Vətən müharibəsi dövründə "Səlcuk Bayraktara təhsil verdiyimiz üçün utanırıq" sözlərinə cavab olaraq bildirib.

Səlcuk Bayraktar tvitində utanılacaq şeylərin törədilən soyqırımı və qətliamlar olduğunu ifadə edib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.

**Suallar:**

**1. Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti.**

**2. Hərbi hissə və birləşmələrin əsas vəzifələri.**

### Azərbaycan Respublikası rəhbərliyinin ölkənin müdafiə qüdrətinin yüksəldilməsi istiqamətindəki fəaliyyəti

Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıraraq, cəmiyyətdə dövlətçilik ənənələri güclənib, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilib. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitliyə və artıma mühüm töhfə verib, təhlükəsizliyin təmini üçün güclü potensial yaradıb.

Vətən müharibəsində qazanılan qələbə sayəsində işğaldan azad edilən ərazilər ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası (işğaldan azad edilmiş ərazilərin siyasi, iqtisadi, sosial, mədəni həyata qovuşması), yeni beynəlxalq və regional nəqliyyat-loqistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir, iqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyin təminatçısıdır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern ordusunun olması ilə də diqqəti cəlb edir. Sabitlik, dinamik inkişaf və güclü ordu quruculuğu müasir Azərbaycan üçün əsas xarakterik cəhətlərdir və bu cəhətlər bir-birinə sıx bağlıdır. Bir mərkəzdən idarə olunan, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Silahlı Qüvvələri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasəti nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı ordu quruculuğu və bu sahədə perspektiv vəzifələr barədə danışan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev demişdi: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müstəqil dövlət quruculuğunun bütün sahələri kimi, ordu quruculuğu sahəsində də keçirilən uğurlu siyasəti nəticəsində Azərbaycan Ordusu yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş orduları arasında özünə layiqli yer tutub. Qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, orduda struktur islahatlarının onun qarşısında duran vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanılması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaradıb. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan respublikanın hərbi məktəbləri ilə yanaşı, hərbçilərimiz bir sıra vacib ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə, Rusiya, Ukrayna, Pakistan və digər ölkələrə göndərilir. Eyni zamanda, Azərbaycan hərbçiləri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak edirlər. Azərbaycanın NATO ilə əlaqələri artıq "Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı" çərçivəsində inkişaf edir. Bu isə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılması üçün möhkəm təməl deməkdir.

Ötən 19 ildə ölkəmizin müdafiə sisteminin gücləndirilməsi, Silahlı Qüvvələrin tərkibində olan bütün qoşunlarda həyata keçirilən islahatlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Bu illərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi nəzarəti, tapşırıqları, göstərişləri və təşəbbüsləri ilə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktiki fəaliyyət göstərən strukturlardan ilk növbədə ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli, məqsədyönlü iş aparılıb. Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması və ən müasir tələblər səviyyəsinə çatdırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu arsenalını modern silah və hərbi texnika ilə zənginləşdirir, müasir döyüş imkanlarını uğurla mənimsəyir. 44 günlük Vətən müharibəsi ordumuzun qüdrəti barədə söylənənlərin təsdiqi oldu. 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda qısamüddətli döyüşlər zamanı ordumuz işğalçı qüvvələrə sarsıdıcı zərbələr endirərək onu geri çəkilməyə məcbur etdi. Vətən müharibəsi isə işğalçı Ermənistan ordusunun Azərbaycan Ordusu tərəfindən tamamilə darmadağın olunması və işğal altında qalan ərazilərimizin azad edilməsi ilə nəticələndi. Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Azərbaycanın parlaq qələbəsini şərtləndirən əsas amillərdən oldu. Ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Ötən 19 ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.

Təbii ki, Azərbaycan hərbi potensialını genişləndirmək üçün özünün sürətlə artan iqtisadi imkanlarından hərtərəfli şəkildə bəhrələnməlidir və bu iş lazımi səviyyədə həyata keçirilməkdədir. Bu gün ən müasir silah-sursat, daha çox yüksək dəqiqliyə, böyük dağıdıcı qüvvəyə malik olan silahlar alınır və müasirləşmə prosesi daim aparılır. Görülən bütün işlərlə yanaşı Azərbaycanda hərbi sənaye də çox sürətlə inkişaf edir. Bu sahəyə də böyük vəsait ayrılır, xüsusi diqqət göstərilir. Bu günə qədər Müdafiə Sənayesi Nazirliyində 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunub və proses davam etdirilir. Məhz bu uğurlu siyasət nəticəsində Müdafiə Sənayesi Nazirliyində müdafiə təyinatlı məmulatların istehsalının həyata keçirilməsi ölkəmizin hərbi qüdrətinin artmasının mühüm göstəricilərindən biridir.

### Hərbi hissə və birləşmələrin əsas vəzifələri

Azərbaycanda ordu quruculuğu dövlət səviyyəsində, dövlətin yaxından iştirakı və qayğısı ilə aparılmaqdadır. Bu iş şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir. Dünyanın inkişaf etmiş ölkələrinin hərbi quruculuq təcrübəsi öyrənilir və müasir tələblərə cavab verən ordu yaratmaq istiqamətində işlər aparılır. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub və yüksək hərbi intizamın saxlanılması üçün müvafiq tədbirlər görülərək islahatlar aparılır.

Bu gün iqtisadi yüksəlişi ilə diqqətləri özünə cəlb edən ölkəmiz yaradılmış qüdrətli ordusu ilə də hər bir azərbaycanlının qürur mənbəyinə çevrilib. Bütün dünya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu təsdiq edir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, müasir silahlarla təminatı istiqamətində görülən işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda apardığı uğurlu əməliyyatlar bir daha sübut etdi ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsi və peşəkarlığına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə səylərimizi davam etdirərək, hər an dövlətimizin müstəqilliyini qorumağa hazır olmalıyıq.

Ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amillərdən biri də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi hissələrə, xüsusən də işğaldan azad edilmiş ərazilərə ardıcıl səfərlər etməsi və hərbi qulluqçularla görüşməsidir. Bu görüşlərdə hərbi qulluqçulara sonsuz mübarizə əzmi aşılayan Silahlı Qüvvələrin Ali Baş Komandanı bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir.

Ordu dövlətin təməl prinsiplərindən biri, təhlükəsizliyin əsas təminatçısı olduğundan dövlətimizin regionda müstəqil siyasət apara bilməsi üçün yüksək döyüş hazırlıqlı ordusu qurulmalıdır. Yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə, işğaldan azad edilmiş ərazilərdə anti-terror əməliyyatlarının aparılacağı təqdirdə hazır olmağını tələb edir. Bunun üçün isə Azərbaycan Ordusunun qarşısında 2022-ci tədris ilində aşağıdakı əsas vəzifələr qoyulmuşdur.

- 2022-ci tədris ilində döyüş və mənəvi-psixoloji hazırlıqda əldə olunmuş nəticələrlə kifayətlənməmək, döyüş hazırlığını daha da təkmilləşdirmək, şəxsi heyətin döyüş ruhunu yüksək səviyyədə saxlanılması;
- şəxsi heyətin Azərbaycan xalqına, dövlətinə və Prezidentinə sədaqətli olmaq, respublikanın suverenliyinin, ərazi bütövlüyünün və dövlətçiliyinin müdafiəsi üçün şəxsi məsuliyyət, hərbi yoldaşlıq, dostluq və qardaşlıq, hərbi hissəsinin döyüş ənənələrinə hörmət, hərbi borcu şüurlu surətdə yerinə yetirmək və döyüş bayrağına sədaqət ruhunda tərbiyə edilməsi;
- Azərbaycan Ordusunun nüfuzunun artırılması, hərbi qulluqçularda yüksək vətənpərvərlik təfəkkürünün, şəxsi heyətin azərbaycançılıq, Vətəninə, Hərbi anda və xalqına sədaqət ruhunda tərbiyə edilməsi, hərbi qulluqçularda Azərbaycan xalqının tarixinə, milli adət və ənənələrinə dərin hörmətlə yanaşma tərzinin, Konstitusiyaya və vətəndaşlıq borcunun yerinə yetirilməsinə, yüksək döyüş və mənəvi-psixoloji keyfiyyətlərinin formalaşdırılması.

Bu gün Azərbaycan Ordusunun qarşısında respublikanın suverenliyini, ərazi bütövlüyünü və dövlətçiliyin müdafiəsini ayıq-sayıq qorumaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə, hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan Ordusunun inkişafının yeni bir səviyyəsinə yüksəldəcək.

**Qeyd**: İctimai-siyasi hazırlıq qrupunun rəhbəri mövzunu şərh edərkən hərbi hissənin, öz bölməsinin 2021-ci tədris ilində döyüş və ictimai-siyasi hazırlığında qazandağı nəticələri bir daha dinləyicilərin nəzərinə çatdırmalı, 2022-ci tədris ilində hərbi hissənin, bölmənin qarşısına qoyulmuş tapşırıqların çatdırılmasına və izah edilməsinə xüsusi diqqət yetirməlidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Bölük komandirləri ilə təlim toplanışları keçirilib




Təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, hərbi hissələrdə bölük komandirləri ilə komandir hazırlığı toplanışları keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanış müddətində komandirlər yüksək texnologiyanın da tətbiqi ilə ümumqoşun hazırlığı üzrə keçirilən nəzəri və praktiki məşğələlərdə müxtəlif tapşırıqları yerinə yetiriblər.

Toplanışın keçirilməsində əsas məqsəd komandir heyətinin idarəetmə bacarıqlarının və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

# Azad edilən ərazilərdə qoşunların fasiləsiz hərəkəti təmin edilir



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, işğaldan azad edilən Kəlbəcər və Laçın rayonlarında dislokasiya olunan qoşunların döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanması, o cümlədən bölmələrin fasiləsiz təminatını həyata keçirmək məqsədilə Azərbaycan Ordusunun Mühəndis Qoşunları yolların daima işlək qalması, qar örtüyündən təmizlənilməsi, eləcə də dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yollarının çəkilməsi üzrə fəaliyyətlər davam etdirilir.

# "Türkiyə Ermənistandan Azərbaycanla problemlərini həll etməsini və nəqliyyat dəhlizlərini açmasını tələb edir"

Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə danışıqlarda rəsmi Ankara qarşı tərəfdən Azərbaycanla problemlərini həll etməyi və kommunikasiyaları, ilk növbədə, Zəngəzur dəhlizini açmağı tələb edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərb politoloqu, "Heritage" Fondunun Daqlas və Sara Elison Mərkəzinin direktoru Lyuk Kofinin "Arabnews" qəzetində dərc olunmuş analitik məqaləsində yer alıb. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 30 ilə yaxın müddətdə Ankara ilə Yerevan arasında diplomatik münasibətlərin qurulmaması, habelə sərhədlərin bağlı olmasının səbəblərindən bəhs edən müəllif qeyd edir ki, yoxsul və bütün transmilli, regional layihələrdən kənarda qalmış Ermənistan qonşuları ilə əlaqələri normallaşdırmağa məcburdur. Bu, xüsusən Azərbaycanın İkinci Qarabağ müharibəsində Qələbəsindən sonra daha aktualdır. Azərbaycanla sərhədlərin demarkasiyasını həyata keçirmək, sülh müqaviləsi imzalamaq, nəqliyyat dəhlizlərini açmaq ermənilərin gələcək humanitar fəlakətlərdən də xilas edə, eyni zamanda, regionun inkişafına təkan verə bilər.

"Müharibədə Qələbə qazanaraq torpaqlarını işğaldan azad etmiş Azərbaycan regional inkişaf və quruculuq, dayanıqlı sülhün təmin olunması istiqamətində səylərini davam etdirir. Digər tərəfdən, Cənubi Qafqazın ən yoxsul ölkəsi olan Ermənistanın da sülhə və qonşuları ilə əməkdaşlığa ehtiyacı var. Türkiyənin danışıqlarda israr etdiyi tələblər yerinə yetirildiyi təqdirdə regionda təhlükəsizliyi və tərəqqini təmin etmək mümkün olacaq", - deyə L.Kofi sonda yazır.

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan silahlı qüvvələrinin Xndrzoresk yaşayış məntəqəsində yerləşən hərbi hissənin bölmələrindən birinin cavabdehliyində olan mövqedə partlayış baş verib. Güclü partlayış səsi eşidən mülki şəxslər bundan qorxduqları və narahat olduqları üçün rayon rəhbərliyinə və polis şöbəsinə məlumat veriblər.

Partlayışdan sonra Xndrzoresk yaşayış məntəqəsində yerləşən 2-ci əlahiddə atıcı taborun Artur D. adlı hərbi qulluqçusu hərbi hospitala təxliyə olunub. Faktla bağlı araşdırma aparılsa da, rəsmi məlumat verilməyib.

* * *

Ötən ilin dekabrın 23-də gecə saat 01:00 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində, qanunsuz erməni silahlı dəstələrinin üzvləri arasında insident baş verib, xəsarət alanlar var.

Xocavənd ərazisindəki mənbələrdən verilən məlumata görə, Yemişcan yaşayış məntəqəsi istiqamətində spirtli içki qəbul edərək sərxoş vəziyyətə düşən Ermənistan əsilli "könüllülərlə", qarabağlı ermənilər arasında baş verən mübahisə sonradan kütləvi davaya çevrilib. İnsident zamanı kütvə kəsici alətlərdən aldığı zərbələr nəticəsində qanunsuz silahlı dəstənin üzvləri Qor Akopyan və Samvel Minasyan ağır bədən xəsarətləri ilə tibb müəssisəsinə aparılıblar.

* * *

Yanvarın 6-dan 7-nə keçən gecə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində, qanunsuz erməni silahlı dəstəsinin daha bir üzvü ölüb. Xocavənd ərazisindəki mənbələrdən verilən məlumata görə, hadisə Yemişcan yaşayış məntəqəsi istiqamətində baş verib.

Qanunsuz erməni silahlı dəstəsinin üzvlərindən biri V.Petrosyanın guya qəflətən səhhətində problem yaranıb. Mənbə onu da bildirib ki, xəstəxanaya aparılarkən V.Petrosyan yolda ölüb. Yaxınları onun dəstənin başqa bir üzvü tərəfindən öldürüldüyünü iddia edir.

Xatırladaq ki, narkotik maddə və spirtli içkilər qəbul etmə səbəbindən Ermənistan əsilli "könüllülərlə" (yaraqlılarla), qarabağlı ermənilər arasında baş verən münaqişələr nəticəsində son vaxtlar cinayət hadisələrinin sayı xeyli çoxalıb.

* * *

Yanvarın 7-də gündüz saatlarında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində, qanunsuz erməni silahlı dəstələrinin üzvlərinin hərəkət etdiyi avtomobil qəzaya uğrayıb.

Xocavənd ərazisindəki mənbələrdən verilən məlumata görə, Yemişcan yaşayış məntəqəsi istiqamətində qanunsuz silahlı dəstənin üzvlərini aparan yük avtomobilinin sürücüsü qəfildən idarəetməni itirib. Nəticədə avtomobil texnikası yoldan çıxaraq dərəyə aşıb.

Qəza nəticəsində xəsarət alanlar barədə məlumat gizlədilir. Mənbə onu da bildirib ki, avtomobilin sürücüsü içkili olduğu üçün hadisə baş verib. Xatırladaq ki, spirtli içki qəbul etmə səbəbindən qanunsuz erməni silahlı dəstələrinin üzvləri arasında belə insidentlərin sayı çoxalıb.

* * *

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində olan qanunsuz erməni silahlı dəstələrinin üzvləri arasında özbaşınalıq halları və narazılıqlar baş alıb gedir. Fürsət düşdükcə "könüllülər" ailələrini də götürüb Ermənistana köçürlər.

Ağdərə ərazisindəki mənbələrdən verilən məlumata görə, yanvarın 9-da saat 12.00 radələrində həmin istiqamətdə fəaliyyət göstərən qanunsuz silahlı dəstənin 30-dan çox üzvü kütləvi şəkildə fərarilik edib. Dəstə üzvlərinin evlərinə buraxılmamasından hiddətlənən 30-dan çox Qarabağ sakini olan erməni əsilli silahlı dəstəni tərk edərək evlərinə gedib.

Mənbə onu da deyir ki, əvvəlcədən sözləşən qanunsuz dəstənin üzvləri yerləşdikləri əraziyə bir neçə taksi və maşını olan qohumlarını çağırıblar. İnsidentlə bağlı dəstənin "komandiri Abel və müavinləri" dindirilmək üçün prokurorluğa çağırılıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər: hadisələr, faktlar

## Finlandiya hazırda NATO-ya daxil olmaq niyyətində deyil



Finlandiya hazırda NATO-ya daxil olmaq niyyətində deyil.

Finlandiya KİV-ləri xəbər verir ki, bu barədə cümə günü ölkənin xarici işlər naziri Pekka Haavisto bəyan edib.

"Finlandiya NATO ilə bu təşkilata daxil olmanı müzakirə etmir və Finlandiyanın gələcək üçün belə layihəsi yoxdur. Finlandiyanın təhlükəsizlik siyasəti dəyişməz olaraq qalır", - deyə Haavisto Avropa İttifaqına üzv ölkələrin xarici işlər nazirlərinin Fransada keçirilən görüşündən sonra telekonfransda jurnalistlərə bildirib.

Finlandiya və İsveçin NATO-ya üzvlük məsələsi Şərqi Avropada gərginliyin artması fonunda başa çatmaqda olan həftədə müzakirələrin predmetinə çevrilib. Lakin iki ölkənin rəhbərliyi bu ideyanı dəstəkləməyiblər. Buna baxmayaraq, hər iki ölkə NATO ilə kifayət qədər sıx əlaqələrə malikdir.

Finlandiya əsasən NATO ilə 1994-cü ildən əməkdaşlıq edir. Ölkə, həmçinin 2014-cü ildən başlayaraq, geniş imkanlara malik dərin tərəfdaşlıq münasibətlərindən faydalanır.

## Qazaxıstandakı qırğız sülhməramlılar geri qayıdıblar



Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində yanvarın 7-də Qazaxıstana göndərilən 150 nəfərlik qırğız sülhməramlıları Almatıdan Tokmok şəhərinə - dislokasiya olunduqları hərbi hissəyə qayıdıblar.

Qırğızıstan Müdafiə Nazirliyinin Mətbuat Xidməti xəbər verir ki, sülhməramlılarla birlikdə Qazaxıstana göndərilən 19 hərbi texnika da geri qaytarılıb.

Məlumatda qeyd olunub ki, qırğız sülhməramlıları bu günlər ərzində Almatıdakı strateji obyektlərin mühafizəsini həyata keçirib, iğtişaşların qarşısının alınmasında iştirak etməyiblər.

## Danimarkanın sabiq müdafiə naziri həbs edilib



Danimarkanın sabiq müdafiə naziri Klaus Hjort Frederiksen dövlət sirrini yaymaqda şübhəli bilinərək həbs edilib.

Sabiq nazir ifadə azadlığını pozduğu üçün təqsirləndirilir. Bildirilir ki, 2016-2019-cu illərdə müdafiə naziri vəzifəsində çalışmış Frederiksen ölkənin təhlükəsizliyi və xarici əlaqələri ilə bağlı məxfi məlumatları ötürməkdə ittiham olunur. Günahı sübuta yetirildiyi təqdirdə onu 12 ilə qədər həbs gözləyir.

"Mən bir millət vəkili kimi siyasi məsələlərlə bağlı danışmışam və hazırda deyəcək başqa heç bir sözüm yoxdur. Danimarkanın maraqlarına xələl gətirəcək bir şey etməyi heç vaxt təsəvvür edə bilməzdim", - deyə sabiq müdafiə naziri açıqlamasında bildirib.

## Qazaxıstanda iğtişaşlar zamanı həyatını itirənlərin sayı açıqlanıb



Qazaxıstanda yanvarın əvvəlində baş vermiş iğtişaşlar zamanı ölən və yaralananların sayı məlum olub. Qazaxıstanda iğtişaşlar zamanı 4,5 mindən çox insan xəsarət alıb, 225 nəfər həyatını itirib.

Bu barədə Qazaxıstanın Baş Prokurorluğu məlumat yayıb.

Ölən 225 nəfərdən 175-i tibb müəssisələrində həyatını itirib və onlardan 19 nəfəri polis və hərbçilərdir.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Adyunkturasına qəbul elanı

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası 2022-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə adyunkturaya qiyabi və dissertantlıq yolu ilə qəbul elan edir.

Qəbul "Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsinə aid aşağıdakı ixtisaslar üzrə elan olunur:
- Hərbi nəzəri elmlər;
- Hərbi xüsusi elmlər;
- Hərbi təbabət;
- Milli təhlükəsizlik.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə isə həkim-mütəxəssis), Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular və mülki işçilər müsabiqə əsasında qəbul olunurlar. Mülki ali təhsil müəssisələrini bitirən hərbi qulluqçular iki ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdırlar.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan hərbi qulluqçular (mülki işçilər) qəbul edilirlər.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya qiyabi təhsil üçün müraciət etmiş namizədlər xarici dildən (ingilis, alman və ya fransız dillərin - dən biri, rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində fəlsəfədən və ixtisas fənnindən qəbul imtahanları verirlər. Xarici dil üzrə imtahanda iştirak etməyən namizədlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir və keçid balı DİM tərəfindən müəyyənləşdirilir. DİM tərəfindən müəyyən edilən keçid balını toplayan namizədlər növbəti imtahanlara buraxılırlar.

Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (IELTS, TOEFL, Test-DaF, DELF, DALF və STANAG 2.2.2.2) malik olan namizədlər xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi Müdafiə Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna tədqiqat sahəsində müəyyən nailiyyətləri olan, ən azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və ya təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq üçün müraciət edən namizədlər digər namizədlər kimi xarici dil üzrə yuxarıda göstərilən qaydalar əsasında DİM-in keçirdiyi qəbul imtahanlarında iştirak etməlidirlər.

Dissertantlıq yolu ilə "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və ya təşkilat olan elmi və elmi-pedaqoji kadrlar müraciət edə bilərlər.

Adyunkturaya qəbul olmaq üçün raportlar komanda üzrə 31.03.2022-ci il tarixinədək hərbi hissələrin komandirlərinə, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəislərinə təqdim edilməlidir.

**Fəlsəfə doktoru hazırlığı üzrə adyunkturaya (doktoranturaya) qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**
- raport, ərizə (adyunktun fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- xidməti (iş yerindən) xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (azı 2 elmi məqalə);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun (bakalavr və magistr səviyyəsi) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış hərbi qulluqçular (mülki işçilər) üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

**Elmlər doktoru hazırlığı üzrə adyunkturaya (doktoranturaya) qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış hərbi qulluqçular (mülki işçilər) üçün təhsil sənədlərinin tanınması haqqında şəhadətnamə);
- "Fəlsəfə doktoru" elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (bu diplomu xarici ölkələrdə almış hərbi qulluqçular (mülki işçilər) üçün təkrar attestasiya (nostrifikasiya) diplomu);
- çap olunmuş elmi işlərin siyahısı;
- dissertasiyanın açıq planı;
- dissertasiyanın aid olduğu sahə üzrə iki "Elmlər doktoru" elmi dərəcəsi olan mütəxəssisdən alınmış yazılı rəy;
- xidməti (iş yerindən) xasiyyətnamə;
- əmək kitabçasından çıxarış (mülki işçilər);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Hərbi hissə komandirləri, hərbi-elmi (elmi tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəisləri adyunkturada təhsil almaq üçün müraciət etmiş namizədlərin raportlarını ona əlavə olunan sənədlərlə birlikdə 15 aprel 2022-ci il tarixinədək Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisinə göndərməlidirlər.

**Ünvan**: Bakı şəhəri, Şəfaət Mehdiyev küçəsi 136, "Qızıl Şərq" hərbi şəhərciyi. Silahlı Qüvvələrin Hərbi Akademiyası.

Əlaqə telefonu:
(012) 404-18-31;
(051) 863-43-54;
(055) 571-15-56.

# İdman

## 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş blits turnir keçirilib



Ucar Rayon Uşaq Gənclər İdman Şahmat Məktəbində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş blits turnir keçirilib.

Yarışda 7 xal toplayan Vaqif Qəhrəmanov birinci yeri tutub. Nurlanə İsayeva 6 xal, Cəsur Daşdəmirli 5 xalla müvafiq olaraq ikinci və üçüncü pillələrdə qərarlaşıblar.

Yarış İsveçrə sistemi üzrə keçirilib və 7 turdan ibarət olub.

## Azərbaycan qılıncoynadanı Türkiyədə bürünc medal qazanıb




Yeniyetmə sablyaçılarımız Türkiyənin Ədirnə şəhərində keçirilən açıq turnirdə qüvvələrini sınayıblar.

Abbas Hüseynov 14 yaşadək oğlan sablyaçılar arasında turnirin bürünc medalına sahib olub.

Qrup mərhələsini 5 qələbə ilə başa vuran A.Hüseynov ən güclü 8-liyə kimi irəliləməyi bacarıb. Təmsilçimiz yarımfinala yüksəlmək uğrunda keçirilən görüşdə turnirin qalibi Ayaz Yiğitə 8:15 hesabı ilə uduzub.

On iki yaşadək qız sablyaçıların yarışında qüvvəsini sınayan Fatimə Kərimova isə qrup mərhələsini uğurla adlayaraq (2 qələbə) pley-offa yüksəlib. Burada ilk görüşünü qələbə ilə başa vuraraq ən güclü 32-liyə yüksələn F.Kərimova növbəti mərhələ uğrunda görüşdə yerli idmançı Hazal Sakaryaya uduzub.

## Şəhriyar Məmmədyarov növbəti turda da heç-heçə edib




Niderlandın Veyk-an-Zee şəhərində "Tata Steel Masters" şahmat superturnirinin ikinci turunun oyunları keçirilib.

Azərbaycan təmsilçisi Şəhriyar Məmmədyarov Rusiya təmsilçisi Andrey Yesipenko ilə mübarizə aparıb. Şahmatçılar 26-cı gedişdə heç-heçəyə razılaşıblar.

Qeyd edək ki, şahmatçımızın birinci turda Rusiyanın digər təmsilçisi Daniil Dubovla görüşü də heç-heçə başa çatıb.

Dairəvi sistem üzrə keçirilən yarışda 14 şahmatçı iştirak edir.

## Yeniyetmə cüdoçular arasında Azərbaycan birinciliyində tarixi göstərici qeydə alınıb



Bakıda keçirilən 18 yaşadək yeniyetmə cüdoçular arasında Azərbaycan birinciliyi tarixə düşüb.

İlk dəfə Bakı istisna olmaqla, 34 müxtəlif regiondan idmançılar yarışa qatılıblar.

Ölkə birinciliyində 570-ə yaxın (479 oğlan, 89 qız) cüdoçu mübarizə aparır.

ACF-nin əsas məqsədlərindən biri yeniyetmələr və gənclər arasında idmanın bu növünə marağın artırılması və yarışlarda ölkənin bütün regionlarının təmsil olunmasına nail olmaqdır.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman tarixindən maraqlı faktlar

İdmanın tarixi ən azı 3000 il əvvələ gedib çıxır. İlk vaxtlarda idman xarakterli hərəkətlərdən ovçuluq və müharibələrə hazırlıq vaxtı istifadə olunurdu. Eramızdan əvvəl 776-cı ildə keçirilən piyada və araba yarışları, güləş, tullanma, disk və nizə atma kimi fəaliyyətləri əhatə edən ilk Olimpiya Oyunları ilə qədim yunanlar dünyaya rəsmi idman növlərini təqdim etdilər.

O zamandan başlayaraq idman sahəsi inkişaf edərək arealını genişləndirməyi bacardı. Bu kateqoriyaya aid olan idman növlərindən biri də XXI əsrin lider oyunlarından biri hesab edilən basketboldur. Basketbol üçün ilk rəsmi qaydalar 1892-ci ildə hazırlanmışdı. Əvvəlcə oyunçular ölçüləri müəyyən edilməmiş meydançada futbol topu ilə yuxarı və aşağı çiləmə hərəkətləri edərək onu səbətə atmaqla xallar qazanırdılar. Dəmir halqalar və səbət 1893-cü ildə hazırlanmağa başlandı. Bununla belə hər dəfə topu səbətə salandan sonra əllə çıxarmaq təcrübəsinə son qoyana qədər on il keçməli oldu. Oyun üçün xüsusi olaraq hazırlanmış ilk ayaqqabılar - Converse All Stars 1917-ci ildə təqdim edildi və tezliklə əfsanəvi oyunçu Chuck Taylor tərəfindən məşhurlaşdı.

Boks idman fəaliyyət sahəsi kimi ilk dəfə təxminən eramızdan əvvəl 3000-ci ildə Misirdə yaranmışdır. Eramızdan əvvəl VII əsrdə qədim Olimpiya Oyunlarına daxil edilmişdir, o zaman boksçuların əl və qol - larını qorumaq üçün yumşaq dəri qayışlardan istifadə olunurdu. Romalılar daha sonra alver məqsədiylə dəri qayışları "cestus" adlanan metaldan hazırlanmış əlcəklərlə əvəz etdilər.

Roma İmperiyasının süqutundan sonra boksun inkişafı zəiflədi və XVII əsrə qədər bu vəziyyət dəyiş - mədi. 1904-cü ildə Sent-Luisdə keçirilən Olimpiadada ABŞ boks üzrə ilk çıxış edən ölkə oldu. Oyuna da - xil olan yeganə ölkə olaraq bütün medalları sahibləndi.

Olimpiya proqramına ilkin qəbul edildiyi vaxtdan bu idman növü 1912-ci il Stokholm Oyunları istisna olmaqla, sonrakı bütün oyunlara daxil olunmuşdur. Stokholmda keçirilməmə səbəbi onun həmin şəhərdə qadağan edilməsi idi. XIX əsrdə Amerikada boks qanuni idman hesab edilmirdi. Bu idman növü cinayət fəaliyyəti kimi qadağan olundu və boks matçları müntəzəm olaraq polis tərəfindən reyd edilirdi.

**Hazırladı:**
**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Alıyev Orxan Valeh oğluna məxsus AD № 0040503 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 102
Nüsxə 4080